# Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Daniel və şirlərin quyusu

Müəllif: Edward Hughes
İllüstrasiya edən: Jonathan Hay
Tərcümə edən: Günay Əsədova
Uyğunlaşdıran: Mary-Anne S.

60 Hekayənin 34 -cisi

**www.M1914.org**

***Bible for Children,*** *PO Box 3, Winnipeg, MB R3C 2G1 Canada*

Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Azərbaycan Azerbaijan

Dara Babildə padşah idi. O, ağıllı idi. O, ölkəyə başçılıq etmək üçün padşahlığın bütün ərazisinə yüz iyirmi canişin təyin etdi. Sonra onlara başçılıq etmək üçün üç vəzir seçdi. Daniel o üç vəzirdən biri idi.



1

Padşah Dara Danielə o qədər çox hörmət edirdi ki, onu bütün padşahlıq üzərində başçı təyin etmək istəyirdi.



2

Digər vəzirlər və canişinlər paxıllıq edirdilər. Onlar Danieli ölkənin idarə işlərində ittiham etmək üçün bir bəhanə axtarmağa başladılar.



3

Nə qədər çox çalışsalar da, heç bir bəhanə və təqsir tapa bilmədilər. Çünki Daniel etdiyi bütün işlərdə padşaha sadiq idi. Həmçinin, o çox ehtiyatlı və ağıllı idi. Həmişə bacardığı qədər ən yaxşını etməyə çalışırdı.



4

Bu paxıl adamlar Danieli ittiham etmək üçün yalnız bir yolun olduğunu bilirdilər. Onlar bilirdilər ki, yer üzərində heç bir şey onu İsrailin Allahına ibadət etməkdən saxlaya bilməz.



5

Danielin düşmənləri plan qurdular. Onlar padşahın imza atması üçün yeni qanun çıxartdılar. Qanunda deyilirdi ki, hamı yalnız padşah Daraya dua etməlidir. Buna itaət etməyən hər bir kəs şirlərin quyusuna atılacaqdı!




6

Padşah Dara yeni qanuna imza atdı.



7

Yeni qanunun Daniel üçün heç bir əhəmiyyəti yox idi. O həmişə etdiyi şeyi etdi. O, gündə üç dəfə öz açıq pəncərəsinin yanında diz çökürdü və göylərin Allahına dua edirdi.





8



Paxıl vəzirlər bunu padşaha deməyə tələsdilər. Padşah Daranın Danieli zindana atmaqdan başqa bir seçimi yox idi. Qanuna əməl edilməli idi. Daniel ölməli idi. Padşah çox çalışdı, amma o, qanunu dəyişdirmək üçün yol tapa bilmədi.

9

Daniel şirlərin quyusuna atılmaqla ölümə məhkum edildi. Daniel ac şirlərin yanına atılmazdan əvvəl, padşah Dara ona dedi: “Daim qulluq etdiyin Allahın səni qurtarsın!”



10

Padşah o gecəni yata bilmədi. Səhər açılanda padşah yerindən qalxıb tələsik şirlərin olduğu quyunun yanına getdi.



11



Danieli çağırıb dedi: “Ey Daniel, var olan Allahın qulu! Daim qulluq etdiyin Allahın səni şirlərdən qurtara bildimi?” Bəlkə o, bir cavab gözləmirdi. Amma Daniel cavab verdi!

12

Daniel padşaha dedi: “Qoy padşah həmişə sağ olsun! Allahım Öz mələyini göndərib şirlərin ağzını bağladı və onlar mənə toxunmadı, çünki mənim Allahın önündə təqsirsiz olduğum bilindi. Ey padşah, sənə qarşı da heç bir cinayət etməmişəm”.



13

Padşah Dara çox sevindi! Danieli quyudan çıxarmağı əmr etdi.



14

Padşah bildi ki, Allah Danieli qurtardı və Danielin düşmənləri Allahın düşmənləri idi. O, sərəncam verdi və pis qanuna imza atmaq üçün ona hiylə quranların hamısını şirlərin quyusuna atdılar. Şirlər onları yedi.



15

Padşah Dara istəyirdi ki, bütün dünya Göylərin Allahının onun sadiq qulu Danieli qoruduğunu bilsin. Padşah hamının yaşayan Allaha ibadət etməsini əmr edən məktub yazdı. Padşah Danieli şöhrətə və başçılığa bərpa etdi.



16

Daniel və şirlərin quyusu

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Daniel 6

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

**Allah, Onun** günah adlandırdığı pis şeyləri etdiyimizi **bilir**. Günahın cəzası ölümdür.

**Allah bizi o qədər çox sevir** ki, O Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və bizim günahlarımıza görə cəzanı ödəmək üçün göndərdi. **İsa dirildi** və Göylərə getdi! İndi Allah bizim günahlarımızı bağışlaya bilər.

**Əgər sən öz günahlarından dönmək istəyirsənsə**, bunu Allaha de: Əziz Allah, mən inanıram ki, İsa mənim üçün öldü və indi yenidən yaşayır. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, indi mən yeni həyata malik ola və sonra Səninlə əbədiyyən yaşaya bilim. Sənin üçün və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin. Yəhya 3:16

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!**